UOT 1(091)

İSRAİL ƏMİRLİ
Bakı Dövlət Universiteti Tarix fakültəsi
Asiya və Afrika ölkələri tarixi kafedrasının müəllimi
amirovisrail04@gmail.com

DÜNYA XALQLARINDA POLİTEİZM

DOI: https://doi.org/10.36719/2708-065X/111/23-26

İnsanlar belə fikirləşmişlər ki, onların dünyada etdikləri əməllər digər dünyada öz müsbət və mənfi mükafatını alacaqdır. Bunun nəticəsində axirət dünyasına inam yaranmışdır. Bundan sonra isə ilk dini etiqadlar yaranmışdır. Bu dini etiqadlar politeizm inanc növləri - totemizm, fetişizm və animizm olmuşdur. Demək olar ki, dünyanın əksər xalqları bu inanc növlərinə inanmışlar.

Açar sözlər. Fetişizm, animizm, totemizm, çox allahlılıq, din.

Giriş. İnsanlıq meydana gəldiyi dövrdən təbiət qarşısında aciz qalmışlar. Bu zaman onlar özlərinin yaratdığı müxtəlif inanc növlərindən kömək ummuşlar. Bu zaman ilk dini inanc növləri meydana gəlmişdir. İnsanlar ilk olaraq təbiətdə mövcud olan qüvvələrdən kömək ummuşlar.

İnsanların inancları müxtəlif xalqlar içərisində həm fərqli, həm də oxşar şəkildədir. Bu dini inanclar insanların ilk yarandığı dövrdə çox allahlılıq şəklində büruzə vermişdir. Demək olar ki, dünya xalqları politeizmin müxtəlif növlərinə sitayiş etmişlər. Çox allahlı dinlər dünya xalqları içərisində bir neçə min il davam etmişdir. Müasir dünya xalqlarının bir qismi hazırda da politeizm dininin müxtəlif formalarına sitayiş edirlər. Türk xalqlarına daxil olan tayfalar da çox allahlı dinlər olan animizm, totemizm və fetişizmə inanmışlar.

İnsanlıq mövcud olduğu dövrdən müxtəlif inanc növlərinə inanmışdır. Bu dinlərdən qəbilə və tayfa dinləri olan totemizm, animizm və fetişizmi göstərmək olar. İnsanlığın inandığı ilk dinlər qəbilə və tayfa dinləridir. Bu dinlər politeizmin bir növüdür. Qəbilə və tayfa dinləri olan totemizm, animizm və fetişizm tək allahlı dünyəvi dinlər yarandığı dövrə qədər əksər xalqlarda davam etmiş, bir qismi isə bəzi dünya xalqlarında müasir dövrdə də mövcutdur.

Demək olar ki, uzun müddət dünya xalqları politeizm dininin qanunları ilə yaşamışdır.

Totemizm heyvanlara inam dinidir. İnternet saytında məlumat verilir ki, bir çox tarixçi və sosioloq tərəfindən bəşəriyyətin ən ibtidai dini olaraq qəbul edilən totemizmə görə, mövcud qəbilələrin bütün üzvlərinin ilkin əcdadı hər hansı heyvan və ya bitki olmuşdur. "Totemizm" sözü, Amerikada "Böyük göllər" regionunun şimalındakı hinduların Ocibve qəbiləsində yaranmışdır. 1791-ci ildə ingilis yazıçı Con Lonqun "Voyages and Travels of İndian interpreter and trade" adlı əsərində "totem" kəlməsi "eyni nəsildən olan qardaşım" mənasında işlədilmişdir. Məşhur sosioloq Emil Dürkheymin fikrincə, totemizm həyat, ruh, tanrı kimi təməl anlayışların mənşəyidir. Bu inanca daxil olan qəbilə üzvləri totemlə özləri arasında bir qan bağı olmağına inanmaqdadırlar. Hətta totem olaraq seçilən heyvanın onların əcdadları olduğuna inanılır. Totemizm inancında 3 fərqli tip əsas anlayış mövcuddur: fərdi totemizm, qrup totemizmi və cinsi totemizm. Qəbilə üzvərini bir-birinə bağlayan totem çox zaman kenquru, timsah, bizon, bəzən bir bitki, nadir hallarda isə bir ulduz, ildırım, meteroit, ya da bir çay kimi cansız nəsnə və ya astronomik hadisə ola bilər. Totem seçimi güclü bir hissiyyatın nəticəsi ola bildiyi kimi, cadugərlər tərəfindən də seçilə bilər. Totem seçimləri yaşanan coğrafi ərazilərə görə dəyişə bilər. Məsələn, Amerika qəbilələrində bizon, canavar və ya qartal totem kimi qəbul edilir. Avstraliya qəbilələrində totem çox zaman sürünənlər və kenquru, Afrika cəmiyyətlərində isə aslan, timsah və qırmızı torpaqdır. Seçilən totem bütün birliyin əcdadı, qoruyucusu, qəyyumu və çətin anlarda məsləhətçisidir. Totem heyvanı, öldürülmür, ovlanmır və yeyilmir. Çünki bu cür davranışın bütün qəbiləyə zərər verəcəyinə inanılır (4).

Totemizm inancına görə, insanlar müxtəlif ev və vəhşi heyvanlara sitayiş etmişlər. Hər bir xalq yaşadığı regiona və daim münasibətdə olduğu məişət və vəhşi heyvanlara inanmışlar. Uzaq Şəq xalqları ayıya, pələngə, canavara məişət heyvanlarından xoruza və digər canlılara etiqad etmişlər. Burada

bir məsələni qeyd etmək lazımdır ki, heyvanlara inanc növü dünya xalqlarında oxşar şəkildə mövcut olmuşdur. Çünki dünya xalqları eyni növdən olan heyvanların müxtəlif irqləri ilə təmasda olmuşlar. Avropa xalqlarında da bu heyvanların müxtəlif irqlərinə inam mövcut olmuşdur. Misal üçün Fransızlar xoruza, slavyanlarda isə ayıya inam mövcut olmuşdur. Cənubi Asiya xalqlarından Hindistanlılarda isə inəyə inam mövcut olmuşdur. Bu inam növünü Hindistanda yaşayan xalqlar bu gün də davam etdirirlər. Türk xalqları isə qurda inanırdılar. Bu onların heyvandarlıqla məşğul olması ilə əlaqədar idi. İtalyada yaşayan xalqlardan etrusklarda da qurd totеminə inam mövcud olmuşdur.

Animizm də qəbilə və tayfa dinidir və politeizmin bir növünə aid olan ruhlara inam, növlərindəndir. Animizmdə insanlar meşənin, dağın, suyun, və s-nin ruhlarına inanmışlar. Yunanların qədim dövrdə istifadə etdiyi allahlar demək olar ki, animizmə inamın bir növüdür. Bunların sırasına baş allah Zevs, dəniz allahı Poseydon, şərabçılıq allahı Dionisi, dəmirçilik allahı Hefest də animizmin bir növü olub ruhlara inam şəklində mövcud olmuşdur. Politeizm adlı saytda bildirilir ki, politeizm inanc növü Misirlilər, Yunanlar, Romalılar və qədim dünyada yaşayan başqa xalqların, eləcədə müasir xalqlardan Hindistan, Yaponiya və Tropik Afrika xalqlarının dinidir (5).

Bəzi türk xalqlarında da animizmə sitayiş mövcud olmuşdur. Oğuz türk xalqlarına aid bəzi tayfaların meşənin ruhuna, dağın ruhuna, suyun ruhuna inamı olması barədə məlumatlar vardır. İndi də bəzi bölgələrdə insanlar ağaclara ip bağlayırlar və arzularının həyata keçməsi müqabilində bu iplərin açılacağına ümid edirlər.

Internet saytında məlumat verilir ki, animizm adı ruh mənasını daşıyır. Ruhların mövcudluğuna, təbiət qüvvələrinin - Günəşin, Ayın, ildırımın, şimşəyin və s. ruhu olduğuna etiqad edənlər animist adlanır. Animistlərə görə, dağın da ruhu var. Dağa qalxmaq istəyən hər bir kəs ondan icazə almalıdır. Ağacı kəsməzdən əvvəl ondan üzr istəməlisən (3).

Dünya xalqları içərisində hazırda hindu xalqları, Yakutyada və Monqolustanda yaşayan bəzi türk xalqları animizm dininin şamanizm təriqətinə inanırlar.

Tək allahlı dinlər kimi, çoxallahlı dinlər olan, animizm, totemizm, və fetişizm də yeni təriqətlərə bölünmüşlər. Sonradan bu təriqətlərin özləri də bir sıra yeni təriqətlərə bölünmüşdür. Misal üçün Buddizmdən maxayana və xinayana təriqətləri ayrılmışdır.

O cümlədən, Hinduizm Bütpərəstliyin, Şintoizm isə animizm dininin təriqətlərindəndir. Bu təriqətlərin bir çoxu indi də mövcutdur.

Müasir tək allahlı dinlərdə də animizmə etiqad mövcutdur. Belə ki, tək allahlı dinlərə sitayiş edən dünya xalqları belə fikirləşirlər ki, onlar vəfat etdikdən sonra, onların ruhu cənnətə və cəhənnəmə gedəcəkdir. Ona görə də animizm özündən sonra yaranan bütün dinlərə o cümlədən tək allahlı dinlərə də təsir etmişdir.

Fetişizm də bir politeizm dinidr. Burada əsas olan əşyadır. İnsanlar müxtəif əşyalara günəşə, ulduza, sinəliklərə, üzüklərə, göz muncuqlarına, daşlara, taxtalara, bütlərə və s inanc növlərinə inanmışlar. Fetişizm də müasir dinlərdən olan tək allahlı dinlərə təsir etmişdir. Bu onların mərasim əşyalarında da özünü büruzə verməkdədir.

İbtidai icma dövründə mövcud olan qəbilə və tayfaların bir qismi fetiş allahlara inanırdılar. Onlar bununla əlaqədar özlərinə ağacdan və daşdan fetiş allahlar düzəldirdilər.

www. colorbrainscience.wordpress.com saytında bildirilir ki, Şarl de Brossun nəzəriyyəsinə görə, bütün dinlərin mənşəyi fetişizmdir. "Fetişizm" sözü dinlər tarixində ilk dəfə 1760-cı ildə de Bross tərəfindən nəşr olunan ''Fetiş tanrılarının dini haqqında'' əsəri ilə daxil olmuşdur. "Fetişizm" fransızca "fetiche" – "ikona", portuqalca "feiticao" – "cadu", "sehr" mənasını ifadə edir. Fetişizm cansız nəsnələri ilahiləşdirən, onlara ibadəti aşılayan ibtidai inanc növüdür. "Fetiş" sözü portuqal mənşəlidir və portuqaliyalılar ilk dəfə "fetiş" sözünü Afrikanın qərb sahillərinə kəşf səyahəti zamanı qarşılaşdıqları yerli əhalinin sitayiş etdikləri əşyanın təsviri zamanı işlətmişlər. Fetişizm tərəfdarı ibtidai qəbilələrin hər birinin özlərinə aid sitayiş etdikləri bir fetişi vardı. Bu fetişin, onları bir çox bəlalardan xilas edəcəyinə inanılırdı (4).

Buddizm də, əşyalara inam dininin təriqətlərindəndir. Ancaq buddizmdə animizm və fetişizm birləşmişdir. Belə ki qəbilə və tayfalar birləşən zaman dinləri də birləşmişdir və bütpərəstlik meydana gəlmişdir. Əgər büt əşyalara inamdırsa, onun daxilindəki ruh animizmə inanc formasıdır.

Bununla yanaşı totemizm və fetişizmin birləşməsi nəticəsində də yeni çox allahlı dinlər yaranmışdır. Misal üçün Misirdə totem başlı fetiş allahlar mövcud idi. Sfinkslər də totem başlı fetiş allahlardır.

Bizim vətənimiz Azərbaycanda da bütpərəstlik elementləri olan əşyalar tapılmışdır.

Kayzen.az saytında bildirilir ki, Azərbaycanda arxeoloji qazıntılar nəticəsində, Xınıslı, Dağkolanı, Çırağlıda qədim tarixə malik iri daş bütlər, İsmayıllıda antropomorf fiqurlar, Mingəçevirdə gil heykəllər aşkar edilmişdir (1).

Digər bir saytda isə Qurani Kərimdə ərəblərin islamaqədərki tarixi "cahiliyyət", yəni "islami biliklərdən xəbərsizlik" dövrü adlanmışdır. Cahiliyyət ərəblərinin çoxcəhətli inanc, ayin və ibadətləri arasında əsas yeri bütpərəstlik tuturdu. Qeyd etmək lazımdır ki, İslamın yaranması ilə ərəb dini fikir və düşüncə tarixində öz mövqeyini itirmiş bütpərəstlik yeni yaranmış din tərəfindən qətiyyət və amansızlıqla rədd edildiyindən orta əsrlər ərəb mənbələrində ərəblərin qədim dini təsəvvürləri ilə bağlı məlumatlar olduqca azdır. Cahiliyyət poeziyasında, tarix, coğrafiya və s. elm sahələrinə dair orta əsr mənbələrində hifz olunmuş dağınıq məlumatlardan başqa, ayrıca olaraq bütlərə həsr edilmiş üç əsərin olması da qeyd edilir. Hər üçü «Kitəbul-əsnam» (Bütlər haqqında kitab) adlanan bu əsərlər İbn Fudeyl (miladi 803-də vəfat edib) Hişam ibn Məhəmməd əl-Kəlbi (miladi 819-da vəfat edib) və Əbu Osman əl-Cahizə (miladi 868 vəfat edib) məxsus olmuş, İbn Fudeyl və əl-Cahizin əsərləri itib-batmış, yalnız Hişam ibn əl-Kəlbinin kitabı zəmanəmizədək gəlib çatmışdır (2).

İslam dini yaranana qədər, Ərəb xalqlarında da bütpərəstlik mövcud olmuşdur. Ərəblər bütləri müxtəlif adlarla adlandıraraq onları Kəbədə saxlayırdılar və onlara hədiyyələr gətirirdilər. Bu amil politeizmdən bezmiş xalqlar içərisində yeni inanc növlərinə ehtiyyacın yaranmasına səbəb olan amillərdən idi.

Ona görə də tək allahlı dinlər meydana çıxdı. Onu da qeyd etmək lazımdır ki, yaranan tək allahlı dinlərin əksəriyyəti, Yaxın və Orta Şərqdə meydana gəlmişdir. Bu da onunla əlaqədar olmuşdur ki, bu region politeizmin mövcud olduğu əsas bölgələrdən biri olmuş dini rəngarənglik daha fəal şəkildə inkişaf etmişdir.

Politeizm (animizm, totemizm, fetişizm) demək olar ki, tək allahlı olan bütün dinlərə təsir etmişdir. Ona görə belə demək mümkündür ki, bütün tək allahlı dinlərin kökü oxşar şəkildədir. Bu onların inanc növlərində əşyalara inam, ruhlara inam və s şəkildə büruzə vermişdir. Ona görədə belə demək mümkündür ki, tək allahlı dinlər olan müasir dünya dinlərinin kökləri oxşar şəkildədir.

Tək allahlı olan dünya dinlərinin kitablarındakı hadisələr də oxşar şəkildə əks olunmuşdur. Bu da ondan qaynaqlanır ki, tək allahlı dinlərin hər biri digərindən qaynaqlanmışdır.

Bundan başqa tək allahlı dinlərdə olan mərasimlər də oxşar şəkildədir. Demək olar ki, bu onların ölü basdırma adətlərinə də təsir etmişdir.

Burada bir məsələni qeyd etmək lazımdır ki, müasir dövrdə tək allaha inanan xalqlar həm də politeizm dövründə mövcud olan bayramları da qeyd edirlər. Misal üçün Azərbaycanda mövcud olan bayramlar politeizm dövründə meydana gəlmişdir. Bunlardan Novruz bayramını göstərmək olar. Novruz bayramında Azərbaycan xalqı animizmin elementləri olan suyun, torpağın, odun və küləyin var olma səbəblərini qeyd edirlər. Azərbaycan və o cümlədən türk xalqları animizmin elementləri olan bu ünsürləri bayramlar şəklində qeyd edirlər. Bununla onu demək istəyirlər ki, yaxşı ki, su, od, hava, torpaq var. Əgər bu elementlərdən biri olmasa bəşəriyyət məhv olar. Türk xalqları bu elementlərin var olma səbəblərini bayram kimi qeyd edirlər.

Nəticə. İnsanlıq yarandığı dövrdən bu günə qədər müxtəlif inanc növlərinə sitayiş etmişlər. Bu sitayiş növləri içərisində politeizmə aid olan dinlərin mühüm əhəmiyyəti var. Bu dinləri qəbilə və tayfa inanc növləri də adlandırmaq olar. Məqalədə bu dinlərin yəni totemizm, fetişizm və animizmin politeizm dini olması, eyni zamanda ilk dinlər olması kəşf olundu.

Bununla yanaşı müxtəlif dünya xalqlarının politeizmə inamları öz təsdiqini tapdı. Məlum oldu ki, politeizm bütün dünya xalqlarında mövcud olmuşdur. Məqalədə fetişizmin növləri, animizmin növləri və totemizmin növləri kəşf olundu. İnsanlığın bir neçə min il sitayiş etdiyi bu inam növlərinə türk xalqlarının da inandığı göstərildi. Bu dinlərin elementlərinin hazırda türk xalqlarının bayramlarında öz əksini tapdığı məlum oldu.

Dünya xalqlarının bir neçə min il bu dini qanunlarla yaşadığı bildirildi. Belə ki, dünya xalqları unitar qanunlar olmayan zaman dini qanunlarla yaşamışlar. Bununla əlaqədar olaraq, dünya xalqları özlərinin dini qanunlarını yaratmışlar. Tək allahlı dinlər olmayan zaman isə çoxallahlılıq dininin qanunları ilə yaşamışlar.

Məqalədə politeizm dinləri olan fetişizm, animizm və totemizmin müasir dünya dinlərinə təsirinin olması sübut olundu.

ƏDƏBİYYAT

1. Bütpərəstlik / URL: www. kayzen.az [10.06.2025].
2. Bütpərəst ərəblər / URL: www.anl.az [10.06.2025].
3. Din tarixindən / URL: www.medeniyyet.az [10.06.2025].
4. Nuriyyə Sultanova. Totemizm / URL: www.colorbrainscience.wordpress.com [10.06.2025].
5. Politeizm / URL: www.booksite.ru [10.06.2025].

ИСРАИЛЬ АМИРЛИ
Бакинский государственный университет, Исторический факультет
Преподаватель кафедры истории стран Азии и Африки

ПОЛИТЕИЗМ У НАРОДОВ МИРА

Человечество было бессильно против природы с момента ее зарождения. В это время они надеялись на помощь со стороны разных видов веры, которые они создали. В это время появились первые виды религиозных верований. Люди сначала надеялись на помощь существующих в природе сил. Люди думали, что их действия в этом мире получат положительные и отрицательные награды в следующем мире. В результате этого возникла вера в загробный мир. После этого возникли первые религиозные верования. Этими религиозными верованиями были политеизм, тотемизм, фетишизм и анимизм. Можно сказать, что большинство народов мира верили в эти виды верований.

Ключевые слова: Фетишизм, анимизм, тотемизм, политеизм, религия.

ISRAIL AMIRLI
Baku State University, Faculty of History
Lecturer, Department of History of Asian and African Countries

POLYTHEISM IN THE NATIONS OF THE WORLD

Humanity has been powerless against nature since its inception. At this time, they hoped for help from different types of faith that they created. At this time, the first types of religious beliefs appeared. People first hoped for help from the forces existing in nature. People have thought that their actions in this world will receive their positive and negative rewards in the next world. As a result of this, belief in the world of the hereafter arose. After that, the first religious beliefs emerged. These religious beliefs were polytheism, totemism, fetishism and animism. It can be said that most peoples of the world believed in these types of beliefs.

Keywords. Fetishism, animism, totemism, polytheism, religion.

Məqalənin redaksiyaya daxil olduğu tarix: 10 iyun 2025-ci il.
Məqalənin çapa qəbul olunma tarixi: 30 noyabr 2025-ci il.
Rəyçilər: t.ü.f.d. İqbal Ağayev, t.e.d. Əmrah Dadaşov.